

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 153 (21.563)

18 avqust 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muxtar respublikada əhalinin məşğulluğu və sosial müdafiəsi sahəsində tədbirlər görülür

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2016-cı ilin iş planına uyğun olaraq iyul ayında işaxtaranların məşğulluğunun təmin olunması, peşə hazırlığı, əməyin təşkili və mühafizəsi, aztəminatlı ailələrin, ahıl və sağlamlıq imkanları məhdud şəxslərin sosial təminatı, tibbi və sosial reabilitasiyası ilə bağlı tədbirlər həyata keçirilmişdir.*

Ötən ay işaxtaran və işsiz vətəndaşların münasib işlə təmin olunması məqsədilə aktiv məşğulluq tədbirləri davam etdirilmiş, 268 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə, 15 nəfər müvafiq peşə kurslarına, 30 nəfər haqqıödənilən ictimai işə cəlb edilmiş, 4 nəfər isə kəndlərdə xidmət mərkəzlərində müvafiq işlə təmin olunmuşdur. İşlə təmin olunan və peşə kurslarına cəlb olunanlardan 9-u məhdud fiziki imkanlı, 1-i hərbi xidmətdən tərxis olunan, 1-i isə cəzaçəkmə müəssisəsindən azad olunmuş şəxslərdir. Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarında əmək yarmarkaları keçirilmiş, 56 nəfər işlə təmin edilmişdir.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunmuşdur. Qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər peşəsi üzrə kursu 14 nəfər bitirmişdir. Hazırda traktorçu-maşınçı və bərbər peşələri üzrə kurslar davam etdirilir. Bu dövrdə işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılması, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsi ilə əlaqədar 36 obyektdə nəzarət tədbirləri görülmüşdür.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu kateqoriyadan olan uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, müxtəlif sosial xidmətlərin göstərilməsi davam etdirilmişdir. Təlimlərə 122 uşaq cəlb olunmuşdur. Bundan başqa, sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə kompüter vasitəsilə "Yurdumuzu tanıyaq" bilik müsabiqəsi və boccia idman növü üzrə yarış keçirilmişdir.

Yay tətili günlərində sağlamlıq imkanları məhdud, hər iki valideyni itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, həmçinin aztəminatlı və şəhid ailələrin uşaqlarının asudə vaxtlarının səmərəli təşkili məqsədilə uşaqların Naxçıvan şəhərində olan muzeylərə, tarixi-memarlıq abidələrinə ekskursiyaları təşkil olunmuş, Naxçıvan Dövlət Film Fondunda onlara Azərbaycan filmləri, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında isə tamaşa nümayiş etdirilmişdir.

İyul ayında tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 458 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, həmçinin 16 nəfərə Ahıllar Evində stasionar sosial xidmət göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 27 şəxsin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 34 uşağın müalicəsi təşkil edilmişdir. Sağlamlıq imkanları məhdud 5 uşaq isə valideynlərinin müşayiəti ilə müalicə üçün Türkiyə Respublikasına göndərilmişdir. Eyni zamanda 41 nəfərə sanatoriya və pansionatlara göndəriş verilmiş, 6 nəfər texniki reabilitasiya vasitələrilə təmin olunmuş, 2 nəfərin sosial məişət şəraitinin yaxşılaşmasına, 5 nəfərin respublika daxilində müalicəsinə köməklik göstərilmişdir. Fiziki imkanları məhdud idmançıların isə Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti işini günün tələbləri səviyyəsində qurub



*Muxtar respublikada dəmir yolu nəqliyyatından istifadə iyul ayında da diqqət mərkəzində saxlanılmışdır.*

Ordubad-Vəlidağ sahəsində hərəkətdə olan yük-sərnişin qatarlarının fasiləsiz işi təmin olunmuş, dəmir yolu vasitəsilə muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 3 min 900 ton müxtəlif təyinatlı yük daşınmış, 13 min 389 sərnişin dəmir yolu nəqliyyatından istifadə etmişdir.

Culfa Lokomotiv Deposunda lokomotivlər 4 dəfə texniki baxışdan keçirilmiş, 3 lokomotiv cari təmir edilmişdir. İnfrastruktur İdarəsinin xidməti ərazisində isə baş və stansiya yollarına baxış keçirilmiş, yağış və leysan sularının maneəsiz ötürülməsi üçün süni tikililər, küvetlər və yol yataqları təmizlənmiş, 707 yararsız ağac şpal dəyişdirilmişdir. Bu dövrdə Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən Ordubad dəmiryol sərnişin vağzalı və Ordubad Yol Sahəsinin inzibati binalarında, Ordubad İdarəetmə Mərkəzi və Yol Sahəsinin yardımçı binalarında, yük anbarında, sərnişin və yük platformalarında, eləcə də onları əhatə edən ərazidə kompleks tikinti, yenidənqurma və əsaslı təmir işləri davam etdirilmişdir.

Həyata keçirilən ardıcıl tədbirlər növbəti aylarda da dəmir yolu nəqliyyatından istifadə edən sərnişinlərə nümunəvi xidmət göstərməyə imkan verəcəkdir.

**"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikasında aparılan tikinti-quruculuq tədbirlərinin bir hissəsini də yeni təhsil müəssisələrinin tikilməsi və ya əsaslı şəkildə yenidən qurulması təşkil edir.*

## Təhsil müəssisələrinin yenidən qurulması diqqət mərkəzində saxlanılır





Bu sahəyə göstərilən dövlət qayğısının nəticəsidir ki, hər il onlarla yeni təhsil ocağı istifadəyə verilir, onların maddi-texniki bazası yenilənir. Belə təhsil müəssisələri içərisində peşə və orta ixtisas təhsili məktəbləri də diqqət mərkəzində saxlanılır. Yeni quruculuq tədbirlərindən payını alan təhsil müəssisələrindən biri də Naxçıvan Dövlət Texniki Kolleci üçün nəzərdə tutulmuş binadır.

Təmir və yenidənqurma işləri aparılan bina A və B korpuslarından, eyni zamanda zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Burada işlərə 2015-ci ilin aprel ayından başlanılıb. Ötən müddətdə binanın giriş hissəsi dairəvi formada yenidən qurulub, yeni qazanxana sistemi quraşdırılıb, kommunikasiya xətləri yenilənib. Artıq burada son tamamlama işləri aparılır. Bina istifadəyə tam hazır olduqdan sonra zirzəmi hissədə qazanxana, mətbəx, kimya, biologiya və fizika laboratoriyaları, fənn kabinələri, birinci mərtəbədə elektron lövhəli sinif, kompüter sinfi, fənn kabinələri, ikinci mərtəbədə kompüter sinfi və elektron lövhəli siniflərlə yanaşı, müəllimlər otağı və digər sinif otaqları, üçüncü mərtəbədə isə 234 nəfərlik tədbirlər zalı və müxtəlif sinif otaqları istifadəyə veriləcək. Təhsil müəssisəsinin ərazisində isə hazırda abadlıq işləri aparılır, yerə kilid daş döşənir, gülkarlıqlar salınır.

Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbin binası da əsaslı şəkildə yenidən təmir olunur. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən hazırda binanın dam örtüyü vurulur, pəncərələr dəyişdirilir, pəncərə kənarları isə milli memarlıq üslubunda üzlük daşla üzlənir. Binanın digər korpusuna isə bir mərtəbə əlavə olunub, giriş hissə dairəvi formada qurulub. Hazırda daxildə suvaq işləri aparılır, kommunikasiya xətləri yenilənir.

Qeyd edək ki, hər iki tikinti obyektində təhlükəsizlik qaydalarına ciddi əməl olunmaqla yanaşı, yerli inşaat materiallarından istifadəyə də üstünlük verilir.

## Babək rayonunda kompleks quruculuq işləri aparılır

Hər il olduğu kimi, cari ildə də Babək rayonunun bir neçə kənd yaşayış məntəqəsinə muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirlərindən pay düşüb. Hazırda rayonun Məzrə kəndində tam orta məktəb, kənd və xidmət mərkəzləri üçün binaların tikintisi aparılır. 270 şagird yerlik nəzərdə tutulmuş tam orta məktəbin binası üçmərtəbəli, kənd mərkəzi isə ikimərtəbəli olacaq. Həyata keçirilən tikinti-quruculuq tədbirləri çərçivəsində kənddaxili yollar da yenidən qurulur.

Hacıvar kəndində isə kənd və xidmət mərkəzlərinin tikintisi aparılır. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin inşaatçıları tərəfindən ötən müddətdə hər iki obyektdə hörgü işləri başa çatdırılıb, binaların dam örtüyü vurulub, kommunikasiya xətlərinin çəkilişi yekunlaşıb. Binaların daxilində suvaq işləri görülüb, fasad hissədə müasir memarlıq üslubunda dizayn işləri aparılıb. İnşaat işləri yekunlaşdıqdan sonra binaların ətrafları abadlaşdırılacaq, yaşıllıq sahələri və gülkarlıqlar yaradılacaqdır.

Hacıvar-Yarımca avtomobil yolunun kənarında yerləşən Badaşqan kəndində inşa olunan xidmət mərkəzində isə son tamamlama işləri aparılır.

**Xəbərlər şöbəsi**

## Meliorasiya və irriqasiya tədbirləri davam etdirilir

*Muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması sahəsində həyata keçirilən tədbirlər mütəmadi olaraq davam etdirilir. İyul ayında muxtar respublikanın rayonlarında 8 kilometr magistral kanal, 46 kilometr ara arxlar, 6 kilometr kollektor lildən təmizlənmiş, 5,6 kilometr yeni suvarma boru xətti çəkilmişdir. Yaşayış məntəqələrini və əkin sahələrini daşqın və sel sularından qorumaq məqsədilə selovlarda 4,35 kilometr selə qarşı istiqamətləndirici bənd salınmışdır.*

Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərini əhatə edən 107 hektarlıq ərazidə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, müxtəlif diametrli borularla 1900 metr boru xətti çəkilmişdir. Babək rayonunun Kültəpə kəndinin torpaq sahələrinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq üçünsə 550 metr xətt çəkilmiş, suqəbuledici hovuz tikilmişdir.

Babək rayonunun Sirab kəndinin torpaq sahələrinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə 400 metr uzunluğunda yeni suvarma xəttinin tikintisi başa çatdırılmışdır. Ordubad rayonunun Əylis kəndi ərazisində 3,5 kilometr yeni arx çəkilmiş, 261 hektar torpaq sahəsi suvarma suyu ilə təmin edilmişdir. Qeyd olunan dövrdə suvarma və içməli su mənbəyi kimi istifadə olunan 84 ədəd subartezian quyusunda da təmir işləri aparılmış, 5 kəhrizdə bu işlər davam etdirilmişdir.



Muxtar respublikada əhalinin içməli su təminatı da diqqətdə saxlanılmışdır. Belə ki, Şərur rayonunun Arpaçay və Dərvişlər kəndlərinin içməli su təminatını yaxşılaşdırmaq üçün 1600 metr, Şahbuz rayonunun Biçənək kəndinin içməli su təminatını yaxşılaşdırmaq üçün 760 metr içməli su xətti çəkilmişdir. "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Naxçıvan şəhərinin Qaraçuq, Qaraxanbəyli, Bulqan və Tumbul kəndlərində müxtəlif diametrli borularla 2560 metr kanalizasiya xətti və 2203 metr içməli su xətti çəkilmişdir. Bu dövrdə Babək rayonunun Şıxmahmud kəndində müxtəlif diametrli borularla 4750 metr kanalizasiya xətti və 6404 metr içməli su xətti, Ordubad rayonunda isə 1380 metr su xətti və 660 metr kanalizasiya xətti çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti**

18 avqust Azərbaycan Sərhəd Qoşunlarının şəxsi heyətinin peşə bayramıdır

# “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası muxtar respublika sərhədlərini etibarlı müdafiə edir

***1919-cu il avqust ayının 18-də Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti “Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında” Qanun qəbul etmişdir. Bu, Azərbaycan Respublikasında Sərhəd Qoşunlarının yaradılması haqqında ilk qanunvericilik aktı idi. Ulu öndər Heydər Əliyevin 2000-ci il 16 avqust tarixli Sərəncamı ilə həmin tarix – avqustun 18-i hər il Azərbaycanda Sərhəd Qoşunlarının şəxsi heyətinin peşə bayramı kimi qeyd olunur.***



Sərhəd qoşunlarının peşəkar milli zabit kadrları ilə formalaşmasında, onlara yüksək xidmət və məişət şəraitinin yaradılmasında, hərbi potensialının artırılmasında ümummilli liderimizin misilsiz xidmətləri olmuş, Sərhəd Qoşunları dövlət sərhədlərinin etibarlı mühafizəsini təşkil etməyə qadir olan mütəşəkkil bir quruma çevrilmişdir. Azərbaycan Respublikası Sərhəd Qoşunlarının formalaşmasında ümummilli liderimizin siyasi fəaliyyətinin 1990-1993-cü illəri əhatə edən Naxçıvan dövrü müstəsna əhəmiyyətə malikdir. Bu dövrdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ilk milli sərhəd qurumları yaradılmışdır.

Ümummilli liderimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən cəmi dörd gün sonra, 1991-ci il sentyabr ayının 7-də Naxçıvanda Dövlət Müdafiə Komitəsinin yaradılması barədə qərar qəbul etmişdi. Bununla da, Azərbaycanda ilk peşəkar vahid komandanlığa tabe olan milli ordunun əsası qoyulmuşdur. Həmin vaxt Naxçıvandakı sərhəd dəstəsinin əmlakının, silah və sursatının tamamilə Azərbaycan sərhədçilərinə təhvil verilməsi işi də ölkəmizin milli maraqlarına uyğun şəkildə həll olunmuşdu. 1992-ci il avqust ayının 22-də Naxçıvandakı 41-ci Sərhəd Dəstəsi Azərbaycanın tabeliyinə keçmiş və sərhəd dəstəsində ilk dəfə müstəqil Azərbaycanın üçrəngli bayrağı qaldırılmışdı. Rusiya Sərhəd Qoşunları Baş Komandanlığı və Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin rəhbərliyi ilə aparılan danışıqların nəticəsi olaraq, 1992-ci il sentyabrın 29-da isə 41-ci Sərhəd Dəstəsi ləğv olunmuş, onun bütün hərbi və təsərrüfat əmlakı Naxçıvanda yeni yaradılmış birinci Sərhəd Dəstəsinin sərəncamına verilmiş, 215 kilometrlik sərhəd ərazisi ilk dəfə olaraq milli Sərhəd Qoşunları tərəfindən mühafizəyə qəbul edilmişdi. Ümummilli lider Heydər Əliyev bu barədə demişdir: ***“Naxçıvanın qonşu İran və Türkiyə ilə sərhədləri on illərboyu rus qoşunları tərəfindən qorunmuşdur. Biz keçmiş Sovetlər İttifaqının, sonra isə Rusiyanın burada yerləşən 41-ci Sərhəd qoşunları hissəsinin buradan tamamilə çıxıb getməsinə nail olduq və Azərbaycanda ilk dəfə olaraq milli sərhəd qoşunlarının birinci dəstəsi yaradıldı... Bütün bunlar tarixi hadisələrdir və nəinki bugünkü, həmçinin gələcək nəsillər tərəfindən layiqincə qiymətləndiriləcəkdir”.***

Ölkəmizdə Sərhəd Qoşunlarının yaradılması ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə ikinci qayıdışından sonra da dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmiş, Azərbaycan öz sərhədlərini müstəqil qorumağa qadir olduğunu nümayiş etdirmişdir. Ümummilli liderimizin yolunu uğurla davam etdirən Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət sərhədlərinin mühafizəsinə və sərhədçilərə göstərdiyi böyük qayğının nəticəsində Sərhəd Qoşunları daha da möhkəmlənir. Ölkə başçısı Dövlət Sərhəd Xidməti ilə bağlı bir çox fərman və sərəncamlar imzalamış, normativ-hüquqi baza təkmilləşdirilmişdir. Həmçinin Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə maaşlarının artırılması, xidmətdə fərqlənənlərin orden və medallarla təltif edilməsi sərhədçilərdə böyük ruh yüksəkliyinin yaranmasına səbəb olmuşdur. Göstərilən qayğı nəticəsində dövlət sərhədlərimizin daha da etibarlı şəkildə qorunması, hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir texnika, avadanlıq və ləvazimatlarla təminatı sahəsində tədbirlər görülmüş, şəxsi heyətin peşəkarlığı artırılmış, yeni sərhəd infrastrukturları yaradılmışdır.



Ali Baş Komandan sərhədlərin qorunmasının əhəmiyyətini bildirərək demişdir: ***“Sərhəd hər bir dövlət üçün onun müstəqilliyini təcəssüm etdirən çox önəmli əlamətdir. Sərhəd müstəqillik deməkdir. Müstəqillik sərhədsiz mümkün deyil”.***

Sərhəd Qoşunlarının formalaşması və inkişafı istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bu gün muxtar respublikamızda da uğurla davam etdirilir. “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır, hərbi qulluqçulara yüksək dövlət qayğısı göstərilir. 2004-cü ildə Naxçıvan Sərhəd Dəstəsinin bazasında “Naxçıvan” Sərhəd Diviziyası, 2015-ci ildə isə Sərhəd Diviziyasının bazasında “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası yaradılmışdır. Muxtar respublikanın sərhədlərinin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələyə qədəm qoymuşdur. Sovet dövründən qalan sərhəd zastavalarının yerində müasir sərhəd zastava kompleksləri tikilərək istifadəyə verilmiş, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılmışdır. Bu gün muxtar respublikanın sərhəd zastavaları müasir sərhəd strukturlarına malikdir.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında aparılan quruculuq işləri davamlı xarakter daşıyır. Belə ki, 2005-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində Əlahiddə Sərhəd Diviziyası qərargahının, əsgər xəstəxanasının, hamam-camaşırxana kompleksinin əsaslı təmiri, çörəkbişirmə sexinin tikilib istifadəyə verilməsi, Şərur sərhəd komendantlığının yenidən qurulması həyata keçirilmişdir. 2007-2012-ci illər ərzində isə ən müasir tələblərə uyğun doqquz sərhəd zastavası kompleks şəkildə tikilmiş, Culfa sərhəd komendantlığı yenidən qurularaq istifadəyə verilmişdir. 2015-2016-cı illər ərzində Əlahiddə Sərhəd Diviziyasının yaşayış şəhərciyinin binası əsaslı təmir olunmuşdur. Avtomobillərin saxlanılması üçün yeni saxlancların, qarovul və qazanxana binalarının inşası başa çatdırılmış, ərazidə abadlıq işləri aparılmışdır. Hazırda “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının bazasında müasir tələblərə cavab verən yeni uşaq bağçasının inşası davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Müasir Azərbaycan sərhədçisi universal funksiyaların icraçısıdır. O, sərhədlərin mühafizəsi ilə yanaşı, beynəlxalq terrorizmə, təxribatçı qüvvələrə, narkotik maddələrin və silah-sursatın qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı da mübarizə aparmalı, fədakarlıq göstərməlidir”.***

*“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti göstərilən qayğı və yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da Naxçıvan Muxtar Respublikası sərhədlərinin etibarlı mühafizəsi istiqamətində qüvvə və bacarığını əsirgəməyəcək.*

***“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası***

# Culfa Rayon Prokurorluğunda növbəti hüquqi-maarifləndirmə tədbiri

***Culfa Rayon Prokurorluğunun təşkilatçılığı ilə Culfa şəhərində torpaq üzərində mülkiyyət hüququnun pozulmasına görə cinayət və inzibati məsuliyyət, valideynlərin hüquq və vəzifələri ilə bağlı maarifləndirici tədbir keçirilib.***

Tədbirdə Culfa rayon prokuroru, baş ədliyyə müşaviri Əli Adıgözəlov “Torpaq üzərində mülkiyyət hüququnun pozulmasına görə cinayət və inzibati məsuliyyət” mövzusunda çıxış edərək bildirib ki, torpaq münasibətlərinin tənzimlənməsi, eləcə də torpaq üzərində mülkiyyət hüququnun və onun ayrı-ayrı elementlərinin yaranması qaydası Konstitusiya və Azərbaycan Respublikasının müvafiq hüquqi-normativ sənədləri ilə tənzimlənir. Torpaq sahəsi üzərində mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə torpaq sahəsinə sahib olmaq, torpaq sahəsindən istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

Qeyd olunub ki, 30 sentyabr 2015-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərin torpaq sahələrinin qorunmasında xüsusi yeri vardır. Belə ki, qeyd edilən qanun qüvvəyə minənədək Cinayət Məcəlləsinin 188-ci maddəsi “Torpaq üzərində mülkiyyət hüququnu pozma” adlanırdı və maddəyə əsasən, torpaq üzərində qanunla müəyyən edilmiş mülkiyyət hüququnu pozma, yəni torpaq sahəsini özbaşına tutma, dəyişdirmə və ya becərmə cinayət məsuliyyətinə səbəb olurdu. Cinayət Məcəlləsinə dəyişiklik edilərək 188-ci maddə yeni redaksiyada verilib və həmin maddə “Torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma” adlandırılıb.

Torpaq üzərində mülkiyyət hüququnun pozulmasına görə inzibati məsuliyyət haqqında danışan Əli Adıgözəlov vurğulayıb ki, Azərbaycan Respublikasında torpaq sahəsi üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət növləri mövcuddur. Bütün mülkiyyət növləri bərabərhüquqludur və dövlət tərəfindən qorunur.

Bildirilib ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin “Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar” adlanan 9-cu fəslində torpaq üzərində mülkiyyət hüququnun pozulmasına görə inzibati məsuliyyət nəzərdə tutan normalar var. 30 sentyabr 2015-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə İnzibati Xətalar Məcəlləsinə də bir sıra dəyişikliklər edilib. Belə ki, Məcəllənin 88-1-ci maddəsi yeni redaksiyada verilib. Əvvəlcə maddə “Müvəqqəti tutulan torpaqların vaxtında qaytarılmaması və ya onların müvafiq istifadə üçün yararlı hala salınmaması, icarəyə verilmiş torpaqların məqsədli təyinatını dəyişdirmədən başqa məqsədlər üçün istifadə edilməsi” adlanırdı. Dəyişiklikdən sonra adıçəkilən maddə “Torpaq sahəsinin məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsi” adlanır.

Sonra torpaq üzərində mülkiyyət hüququnun pozulmasına görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş məsuliyyət haqqında ətraflı məlumat verilib.

Culfa rayon prokurorunun köməkçisi, III dərəcəli hüquqşünas Afət Kərimli çıxış edərək bildirib ki, valideynlərin hüquq və vəzifələri Azərbaycan Respublikası Ailə Məcəlləsinin 12-ci fəslində öz əksini tapıb. Valideynlər öz uşaqları barəsində bərabər hüquq və vəzifələrə malikdirlər. Yetkinlik yaşına çatmayan şəxslər nikah bağladıqda, eləcə də yetkinlik yaşına çatmayan uşaqlar qanunvericiliklə müəyyən edilmiş hallarda tam fəaliyyət qabiliyyəti əldə etdikdə valideynlərin bu fəsildə göstərilən hüquq və vəzifələrinə xitam verilir.

Vurğulanıb ki, valideynlər uşaqlarının hüquq və mənafelərini müdafiə etməlidirlər. Valideynlərin və uşaqların maraqları arasında ziddiyyət yarandığı müəyyən olunarsa, müvafiq icra hakimiyyəti orqanı uşaqların hüquq və mənafeyini müdafiə üçün nümayəndə təyin etməlidir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**✍ Kərəm HƏSƏNOV**

***İyul ayında Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən əlamətdar və tarixi günlərlə bağlı tədbirlər keçirilmiş, muzeylərin fəaliyyəti nəzarətdə saxlanılmış, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində muzey işçiləri üçün seminar-treninq keçirilmişdir. Ay ərzində muxtar respublikada fəaliyyət göstərən 40-dan çox nazirlik, komitə və baş idarələrin kollektivlərinin muzeylərlə tanışlığı təmin edilmiş, muzeyləri 2868 nəfəri əcnəbi vətəndaş olmaqla, ümumilikdə 130 min 973 tamaşaçı ziyarət etmişdir.***

# Mədəniyyət müəssisələrində bir sıra tədbirlər keçirilmişdir

Kitabxanaların fəaliyyəti diqqət mərkəzində saxlanılmış, Şərur rayonunda kitabxana işi ilə bağlı zona müşavirəsi keçirilmişdir. Kitabxanalarda yazıçı və şairlərin yubileyləri ilə bağlı 7 tədbir keçirilmiş, sərgilər təşkil edilmişdir. Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası tərəfindən Naxçıvan şəhərində “Kitabı sevin, kitab bilik mənbəyidir” başlıqlı 3 kitab sərgisi təşkil olunmuş, uşaq bağçalarında “Nağıl günü” başlığı altında 33 tədbir keçirilmişdir. İyul ayında kitabxanalarda oxucu gəlişi 6429 nəfər, kitab verilişi 29 min 191 ədəd təşkil etmişdir. Naxçıvan Muxtar Respublika Kitabxanasının elektron kitabxanasından 511 oxucu istifadə etmişdir. Elektron kitabxananın zənginləşdirilməsi sahəsində işlər də davam etdirilmiş, ay ərzində 182 nüsxə yeni kitabın elektron variantı hazırlanmışdır.

“Əlincəqala” tarixi abidəsində “Xalq yaradıcılığı günü” keçirilmiş, həmçinin Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsi tərəfindən rayonun klub və mədəniyyət evlərinin nəzdində fəaliyyət göstərən folklor kollektivlərinin iştirakı ilə “Folklor günü” adlı tədbir təşkil edilmişdir. Bundan başqa, Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestri Babək qəsəbəsində konsert proqramı ilə çıxış etmiş, “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016” layihəsi davam etdirilmiş, müsabiqənin IV mərhələsi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında 2016-cı il 11 yanvar tarixli Sərəncamının icrası ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə tətil günlərində bu kateqoriyadan olan uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında “Duz kisəciyi” tamaşası göstərilmiş, uşaqların muzeylərə ekskursiyası təşkil edilmiş, Naxçıvan Dövlət Film Fondunda Azərbaycan uşaq filmlərinin nümayişi təşkil edilmişdir.

Ötən ay muxtar respublikanın turizm potensialının öyrənilməsi və təbliği sahəsində işlər də davam etdirilmişdir. Ay ərzində nazirliyin nəzdində fəaliyyət göstərən “Tətbiqi sənət və rəsm əsərləri, tarix və mədəniyyətimizlə bağlı müxtəlif növ çap məhsullarının satış mərkəzi”ndə 33 adda 118 ədəd əl işi satılmış, taksi xidməti ilə məşğul olanların muzeylərə ekskursiyaları təşkil edilmişdir. Kənd yaşıl turizminin inkişafı ilə bağlı Ordubad rayonunun Gənzə, Nüsnüs və Əndəmic kənd sakinləri ilə maarifləndirici görüşlər keçirilmişdir. Hesabat dövründə Naxçıvan Turizm İnformasiya Mərkəzinin “Facebook” sosial şəbəkəsindəki səhifəsinə 8743, “Youtube” videoportalındakı səhifəsinə 1473 baxış olmuşdur. Muxtar respublikanın turizm potensialı ilə bağlı 27 xarici ölkəyə, Azərbaycanda fəaliyyət göstərən 17 turizm şirkətinə və bölgələrdə yerləşən 2 turizm informasiya mərkəzinə məlumatlar göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***



*Yurdumuzu tanıyaq və tanıdaq*

# Naxçıvan-Əlincə turizm marşrutu

***Naxçıvanın gəzməli-görməli yerlərinin turistlərə təqdimatı muxtar respublikada həyata keçirilən müasir turizm-ekskursiya fəaliyyətinin əsas vəzifələrindən biridir. İstər tarixi-mədəni, istərsə də təbii-rekreasiya ehtiyatları baxımından son dərəcə zəngin olan qədim Naxçıvanın özünəməxsus milli qonaqpərvərliyi bu əraziyə səyahət edən turistlərə təkrarolunmaz təəssürat vəd edən turlar hazırlamaq imkanı yaradır. Naxçıvanın şah tacı, qədim Əlincə qalası istiqamətində turistlərə və muxtar respublikamıza səfər etmiş digər qonaqlara təklif olunan səyahətlər də bu baxımdan öz məzmunu və yüksək həssaslığı ilə diqqəti cəlb edir.***

### Bir qalanın sirri

Naxçıvan-Əlincə turizm marşrutu üzrə səyahətin əsas motivləri turistlərin Naxçıvana gəlişindən xeyli əvvəl formalaşır. Başqa sözlə, indiki informasiya bolluğu şəraitində Əlincə qalası haqqında kifayət qədər virtual məlumat alan turistlərin bu yerlərə gəlməsi ilə həmin təsəvvürlər reallığa çevrilir. Bu baxımdan Naxçıvandan Əlincə qalasının zirvəsinə qədər edilən yürüşlər digər hər hansı bir şəhər və ya şəhərətrafı ekskursiyalarla müqayisədə özünün bütün məzmunu ilə bir qəhrəmanlıq hekayəsi yaşatmalıdır. Çünki indiyə qədər bu torpaqda yaşayan və yaşadılan hər tarixi iz təkcə hansısa bir qalanın sirri deyil, eyni zamanda əsrlər öncəsinədək bütöv bir xalqın mübarizə əzminin daşlaşmış salnaməsidir. Odur ki, muxtar respublikamıza səyahət etmiş turistlərə Naxçıvan-Əlincə turizm marşrutu üzrə səyahətlər təklif olunduğunda təkrarolunmaz, bir rəssam əsəri kimi rəngarəng olan tur proqramları ortaya qoymaq tələb olunur. Bunun üçün nə etməli, haradan başlamalı sualının cavabı isə çox sadədir. Əlincəqalanın ətəyində və zirvəsində bircə saatlıq düşüncəyə dalıb fikirləşməklə bu məsələ öz həllini tapacaqdır. Sirlərlə dolu bu qalanın min illərdən süzülüb gələn qədim tarixi, bu tarixi gələcək nəsillərə çatdırmaq üçün bu torpaqların əzəli sahibləri olan azərbaycanlıların yurd sevgisi və qətiyyəti yaradılacaq kompozisiyanın bəzəyi olacaqdır. Ancaq yaxşı olar ki, bu marşrut haqqında söhbətə başlarkən tarixin qədim qatlarına bir nəzər salaq.

### Əlincə – tariximiz

Əlincə istiqamətində yola çıxarkən, ümumilikdə, Naxçıvanın tarixi haqqında qısa da olsa, bir giriş verilməsi tələb olunur. Çox tez-tez rast gəldiyimiz bir hal vardır ki, bəzi əcnəbi turistlər Naxçıvanın niyə Azərbaycandan ayrı düşdüyünü, hətta buradakı yerli əhalinin hansı dildə danışdığı kimi bizə primitiv görünən, ancaq onlar üçün maraqlı suallar verirlər. Bu da təbiidir. Məsələn, biz özümüz də Aralıq dənizindəki adalardan birinə səyahət edəndə buranın yerli əhalisinin hansı dildə danışdığı haqda maraqlana bilərik. Odur ki, tariximizə dair hətta bizim 8-ci sinif şagirdlərimizin belə, əzbər bildiyi bir çox məlumatların turistlərdə qeyri-adi reaksiya doğurmasına təəccüblənməməli, tam əksinə, bunu Azərbaycan və Naxçıvan həqiqətlərinin dünyaya çatdırılması üçün bir fürsət kimi dəyərləndirməliyik. Həm də peşəkarcasına. Çünki bunlar da, əslində, turizm-tanıtım sarıdan yığılıb qalmış problemlərimizin bir hissəsidir.

Turizm mədəniyyətlərarası dialoqun mühüm vasitələrindən biridir. Təkcə müasir dövrdə deyil, tarix boyunca səyyahların əsas missiyaları dünya xalqlarının mədəniyyətini öyrənmək, insanların həyatının bütün maraqlı elementlərini öyrənib öz ölkələrinə qayıtmaq olub.

Tarixi İpək Yolu üzərindəki Naxçıvan öz coğrafi mövqeyi, qədim şəhər mədəniyyəti və yadelli basqınlardan müdafiə olunmaq bacarığı ilə ad çıxarmışdır. Bu mənada, Əlincə yolu ilə səyahət edən turistlər də bilməlidirlər ki, Naxçıvanın qədim tarixi Azərbaycan tarixinin mühüm bir hissəsidir. Naxçıvan cəmisi yüz il əvvəl tarixi ədalətsizlik nəticəsində Azərbaycandan aralı düşsə də, bu şəhər Atabəylər dövlətinin paytaxtı kimi dünyada tanınırdı. Bəzən tarix haqqında danışarkən müharibələr haqqındakı epizodlar maraqla dinlənilir.





Ancaq, fikrimizcə, Əlincəyə doğru hərəkət edən turistlərə Naxçıvanın alınmazlığının sirrini bu torpaqda formalaşmış mədəniyyətlə bağlı olduğunu çatdırmaq ən doğru giriş olardı. Min illər ərzində Naxçıvanda formalaşmış bir mədəniyyət vardır ki, o, bu torpağın əyilməzliyinin əsl mayası, ruhudur. Qoy turistlər bilsinlər ki, bu torpaqda heç kimi heç bir yağlı tikəyə satın almaq, çətinliklərlə qorxudub yurd-yuvasından çıxarmaq mümkün olmayıb. Göydə Allah, yerdə Əlincə qalası kimi sərt qayalar naxçıvanlıların həmişə dadına çatıb. Ona görə də bu ssenari ilə davam etdirilən tur təqdimatı zamanı Əlincə qalasına çatan turistlər bir daha inanacaqlar ki, necə olub, Səmərqənddən Bağdada qədər dünyanın az qala yarısını tutmuş bir fateh 14 il ərzində Əlincə qalaya bata bilməyib.

Əlincəqala təkcə müdafiə məqsədli bir istehkam olmayıb. Bu qala, xüsusən orta əsrlərin feodal dövlətləri dövründə bir xalqın yaratdığı mədəniyyət incisi, dövlətçiliyin, iqtisadiyyatın güc simvoludur. Buraya gələn turistlər bilməlidir ki, təkcə dünyada deyil, Azərbaycanın, eləcə də Naxçıvanın müxtəlif yerlərində Əlincədən daha yüksəkdə yerləşən sərt sıldırımlı qayalıqlar vardır. Amma tarixi zaman ərzində bunların bir qala kimi istifadə olunaraq strateji əhəmiyyət kəsb etməsi və müəyyən çətin dövrlərdə dövlətin alınmaz qalası olması üçün müəyyən şərtlər tələb olunurdu. Odur ki, turistlərə Əlincəqalanın tarixi haqqında danışarkən onun müdafiə məqsədli xüsusiyyətləri ilə yanaşı, strateji mövqeyi və orta əsrlərdə təkcə Naxçıvanda mövcud olmuş feodal dövlətləri üçün deyil, həm də o dövrdə Cənubi Qafqaz, Orta Asiya və Yaxın Şərq ölkələri üçün nə dərəcədə əhəmiyyətli olduğunu vurğulamalıyıq. Sonuncu Atabəy hökmdarı Özbəyin dövründə dövlətin Təbrizdən idarə olunmasına baxmayaraq, dağıdıcı monqol hücumlarından qorunmaq üçün onun Naxçıvanda məskunlaşması Əlincəqala kimi möhkəm müdafiə oluna bilən bir qalanın yaratdığı inamdan doğur.

### Əlincə – bu günümüz

Naxçıvan müstəqil Azərbaycan dövlətçiliyinin qurulması və möhkəmləndirilməsində xüsusi yeri olan bir torpaqdır. Tarix təkrar olunur. Azərbaycan tarixinin müxtəlif mərhələlərində öz sözünü demiş Naxçıvan indi də heyrətamiz irəliləyişləri ilə ölkə gündəmində mühüm yer tutmaqda, yaxın-uzaq xaricdə maraqla izlənilməkdədir. Bununla yanaşı, Naxçıvanda görüləcək işlər də çoxdur. Belə ki, müstəqillik illərində muxtar respublikanın hərtərəfli inkişafı, insanların həyat səviyyəsinin yüksəlməsi özü ilə yeni tələbatlar doğurmuşdur. Odur ki, Əlincə marşrutu üzrə irəliləyərkən, indi Naxçıvanın 200-dən artıq kəndinə bu cür rahat və təhlükəsiz yollar çəkildiyi, bütün kəndlərdəki müasir idarəetmə tələblərinə uyğun infrastruktur şəraiti yaradıldığı vurğulanmalıdır. Məhz bu məqamda Naxçıvanın keçmişi ilə müasir dövrü arasında bir etibarlı körpü dayağı kimi təqdim olunan Əlincə qalasının bərpa olunaraq yenidən dünya mədəniyyəti mirasına qazandırılmasının əhəmiyyəti bütöv bir fəsil kimi geniş izah olunmalı, qalaya qalxdıqca pillə-pillə görülən işlərin möhtəşəmliyi turistlərin diqqətinə çatdırılmalıdır. Bu gün muxtar respublikanın etibarlı müdafiəsindən tutmuş kiçik bir emal müəssisəsi yaradılmasınadək görülən bu qədər işlər arasında Əlincəqalanın bərpa olunmasına və muzey yaradılmasına ayrılan diqqət Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iradəsinin məhsulu olduğu bildirilməlidir. Turistlər hiss etməlidir ki, Əlincənin zirvəsinə qalxmaq, sadəcə, dəniz səviyyəsindən, təqribən, 1500 metr yüksəklikdəki bir zirvəyə dırmanmaq deyildir. Bəli, bu, elə bir zirvədir ki, XIV əsrin sonlarında tam 14 il ərzində yadelli ordular onun zirvəsinə həsədlə baxıblar. Ancaq mədəniyyətin, səbir və inamın nəticəsidir ki, indi Əlincə qalası hər gün yüzlərlə yerli və xarici turisti özünə çağırır.

**Beləcə, qalaya gedən hər pillənin hekayəsinə qulaq asaraq Əlincənin zirvəsinə çatırıq. Burada hər şey təbii, hər şey olduğu kimidir. Qalır təkcə tarixin dərin qatlarındakı cəngavər döyüşlərinə şahidlik etmiş qayalarla baş-başa qalıb seyrə dalmaq. Beş dəqiqə nəfəs dərib qalanın təqdimatına başlayırıq. Naxçıvana gəlmiş turistlər bir daha tarixin açılmamış səhifələrində yaşayan ecazkarlığa şahid olacaqlar.**

*(Ardı var)*

**Əli CABBAROV**

# Biliyə gedən yol əməli fəaliyyətdən keçir

*Qədim diyarımızda fəaliyyət göstərən məktəblər iki amilin vəhdətində ilbəil uğurlarının sayını artırmaqla təhsilin inkişafına öz töhfələrini verirlər. Bu yazımızda builki qəbul imtahanlarında yüksək nəticələr qazanan Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin bir sinfindən bəhs edəcəyik. Azərbaycan dili və ədəbiyyat müəllimi Nurtəkin Əliyevanın sinif rəhbəri olduğu XI$^{A}$ sinfindən 22 məzundan 21-i tələbə adını qazanıb. Abituriyentlərdən 12 nəfəri 500-700 intervalında, onlardan 4-ü isə 600-dən yuxarı bal toplayıb. Yüksək nəticə göstərən gənclərimizi oxucularımızla yaxından tanış edirik:*



***Toğrul ƏLİYEV:*** – Tələbə adını qazanmağın sevincini yaşayıram. Həm də ona görə sevincliyəm ki, istədiyim ixtisasa qəbul olunmuşam. Qazandığım uğurun arxasında çox səbəblər dayanır. Yaxşı məktəbdə təhsil aldıq. Fənn olimpiadalarında fəal iştirak edirdim. Elə ötən il Azərbaycan dili fənni üzrə fənn olimpiadasında birinci yerin sahibi oldum və qızıl medal qazandım. Arzum hüquqşünas olmaq idi. Qəbul imtahanında 695 bal toplayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquqşünaslıq ixtisasına qəbul oldum. Akademiyanı da yüksək qiymətlərlə başa vurmaq istəyirəm. Bunun üçün də üzərimdə ciddi çalışmalıyam. Gələcəkdə arzum beynəlxalq hakim olmaqdır. Bu arzuma çatacağıma inanıram.



***İsmayıl MƏMMƏDOV:*** – Mən 682 bal toplayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İqtisadiyyat ixtisasına daxil olmuşam. Müəllimlərimin və valideynlərimin ümidlərini doğrultduğuma görə sevincimin həddi-hüdudu yoxdur. Hər sınaq imtahanından sonra həm valideynlərim, həm müəllimlərim nəticələri müzakirə edirdi. Çalışırdım ki, hər sınaqdan sınağa balımı yüksəldim. Zəhmətim hədər getmədi. Növbəti ilin abituriyentlərinə məsləhətim budur ki, ali məktəblərə qəbul olunmaq üçün ciddi çalışsınlar. Tələbə adını qazandığım üçün mənə on bir il dərs deyən müəllimlərimə minnətdaram. Ali təhsil alacağım illərdə də onların etimadını doğrultmağa çalışacağam.



***Azər HÜSEYNOV:*** – Qarşıma məqsəd qoymuşdum: 600 balı keçməliyəm. İmtahana girərkən həyəcanlı idim. Ancaq sual kitabçasındakı suallara ötəri nəzər yetirdikdən sonra həyəcanım keçdi və 600-dən yuxarı bal toplayacağıma isə elə imtahanda əmin oldum. Artıq Azərbaycan Diplomatik Akademiyasının Biznesin idarə olunması ixtisasının tələbəsiyəm. Bu uğuruma görə dövlətimizə, müəllimlərimə və valideynlərimə minnətdaram. Bitirdiyim təhsil ocağındakı fənn kabinələri, işıqlı dərs otaqları, zəngin kitabxana hər bir şagirdin yüksək səviyyədə təhsil almasına geniş imkanlar açıb. Biz şagird olduğumuz illər ərzində üzərimizdə hər zaman qayğı, yaxşı oxumağımız, bilik sahibi olmağımız üçün diqqət hiss etmişik. Bunların müqabilində çox çalışmalı, yaxşı oxumalı, ümidləri doğrultmalı olduğumuzu unutmuruq. Qarşıda bizi daha məsuliyyətli tələbəlik illəri gözləyir. Seçdiyim ixtisasa dərindən yiyələnmək üçün ciddi çalışacağam.



***Zəkiyyə ƏLİYEVA:*** – Mən 608 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin İngilis dili müəllimliyi ixtisasına qəbul olmuşam. Əvvəlcə onu deyim ki, əgər tələbə adını qazanmaq, gələcəkdə öz xalqına və dövlətinə layiq vətəndaş kimi yetişmək istəyirsənsə, təbii ki, çox oxuyub, çox öyrənməlisən. Tələbə adını qazanmağımda məktəbimizdə yüksək tədris üçün yaradılan şərait əsas amildir. Onu da dərk edirəm ki, yaxşı tələbə olmaq üçün çox çalışmalıyam. İnanıram ki, təhsilimi uğurla başa vuracaq, savadlı kadr kimi Azərbaycanın inkişafına töhfə verməyə çalışacağam.

*Bir sinfin məzunlarının ürək sözlərini qələmə alarkən bir anlığa muxtar respublikada bu strateji sahənin inkişafına göstərilən qayğını göz önünə gətirdim. Hamımız təsdiq edərik ki, belə qayğı paytaxt şəhərimizlə yanaşı, ən ucqar dağ kəndlərini də əhatə edir. Qalır ki, bu qayğıdan yetərincə bəhrələnəsən. Yüksək uğurlara məhz onda nail olmaq mümkündür. Bunun bariz nümunəsini Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin timsalında görmək olar.*

**Sara ƏZİMOVA**

*Mütəxəssis sözü*

## Yovşan əhəmiyyətli bitkidir

***Yovşan mürəkkəbçiçəklilər fəsiləsinə aid olan kosmopolit növdür. Avrasiyada, Şimali və Cənubi Afrikada, Şimali Amerikada 400-dək, Qafqazın çöl və səhralarında 180, o cümlədən Azərbaycanda 42 növü yayılmışdır. Hündürlüyü 0,5 metrə çatan çoxillik ot tipli bitkidir. Şaxələnən yeraltı kökümsov gövdəyə malikdir. Kökboğazından yerüstü zoğlar inkişaf edir ki, onların da zirvəsində ətirli çiçəkləri formalaşır. Zoğun aşağı hissəsindəki yarpaqları ikilələkli, orta hissəsindəki sadə lələkli, yuxarıda olanlar isə üçqanadlıdır. Bu bitkinin bütün yerüstü hissəsi (çiçəklərdən başqa) boz rəngdədir. Çiçəkləri süpürgə şəklində yerləşmişdir. İyul-avqust aylarında çiçək açan bitkinin özünəməxsus ətri olur.***



***Adi yovşan.*** Mülayim iqlimə malik qurşaqların hər yerində rast gəlinir. Yabanı halda yol kənarlarında, çay və göl sahillərində yayılmışdır. Quru halda ədviyyat kimi istifadə olunur. Ət xörəklərində göyərti kimi işlədilir. Tərkibində 0,026-0,2 faiz efir yağı vardır.Yovşanın dərman əhəmiyyətli, qida xüsusiyyətli, efir yağlı, aşı təbiətli, boyaq və bəzək üçün yararlı növləri əksər ölkələrdə mədəni halda becərilir. Yovşandan hazırlanmış cövhərdən iştahagətirici vasitə kimi qızardılmış və yağlı xörəklərin, xüsusilə də ördək və qaz ətlərinin yeyilməsində istifadə edilir. Yovşanın tərkibində kifayət qədər efir yağı, flavonoid, kumarin, sekviterien laktonları, absintin, anab-sintin, artabsin, xamazulin, vitaminlər, üzvi turşular, şəkər, selikli və az miqdarda alkoloidli maddələr vardır. Tərkibində efir yağının olması onun qurdqovucu, valerian turşusunun olması sakitləşdirici, fenol birləşmələrinin olması vəba xəstəliklərinə qarşı müalicəvi təsirini göstərir. Tərkibi müxtəlif kimyəvi maddələrlə zəngin olduğundan tibdə bir çox xəstəliklərin müalicəsində geniş istifadə olunur.

***Adi yovşan otunun dəmləməsi.*** Bir xörək qaşığı adi yovşanın xırdalanmış otunun üzərinə 1/2 litr qaynar su əlavə edirlər, bir neçə saat müddətində dəmləyirlər, süzürlər. Alınan dəmləmədən gündə 3 dəfə, hər dəfə 0,5 stəkan yeməkdən sonra qəbul edirlər.

***Adi yovşan kökünün bişirilməsi.*** 30 qram xırdalanmış köklərin üzərinə 0,5 litr ağ şərab əlavə edilir, 10 dəqiqə müddətində qaynadılır, tam soyuyana qədər saxlanıb süzülür. Alınan bişirmədən 3 xörək qaşığı yeməkdən əvvəl qəbul edilir.

***Acı yovşan.*** Acı yovşanın tərkibində əsas təsiredici maddə efir yağlarıdır. Efir yağı göy və ya tünd-yaşıl rəngdə acı duru mayedir. Efir yağının tərkibində tuyil spirti, tuyon, pinen, kadinen, fellandren, kariofillen, selinen, bizabolen, kurkumen və sair maddələr var. İsti havada ətrafa daha çox efir yağı ifraz edir. Buna görə də yay aylarında heyvanlar onu az yeyirlər. Yovşanın əsas xüsusiyyətlərindən biri parazit qurdlara qarşı öldürücü təsirə malik olmasıdır.

Keçmişdə onu tauna, qurdlara və dəri parazitlərinə qarşı dərman vasitəsi kimi işlətmişlər. Muxtar respublikamızın qış otlaqlarında acı yovşandan heyvanların parazit qurdlardan təmizlənməsində və mədə-bağırsaq sisteminin yaxşılaşmasında istifadə edilir.

Yovşan mərkəzi sinir və qanyaradıcı sistemin fəaliyyətini artırır, asteniya, zəiflik, anemiya və epilepsiya kimi xəstəliklərin müalicəsinə zəmanət verir. Tərkibində hərarətsalıcı və öskürəkkəsici maddələr olduğundan temperatur ilə müşayiət olunan malyariya, qrip və kəskin respirator xəstəliklərinin profilaktika və müalicəsində istifadə edilir. Acı yovşan 20-dən artıq dövlətin farmakopeyasına daxil edilmişdir. Acı yovşanın tərkibində 13,6 faiz kül, 15,6 faiz protein, 5,1 faiz yağ, 34,1 faiz sellüloz, 31,6 faiz azotsuz üzvi maddələr vardır.

Muxtar respublikamızda yovşanın böyük ehtiyatı vardır. O, əsasən, qış otlaqlarının əsas fitosenozunu təşkil edir və qış aylarında heyvanlar tərəfindən yeyilir. Bu isə heyvanların qurdlardan azad olmasını və proteinə olan tələbatını təmin edir. Azərbaycanın yay və qış otlaqları ərazisində yem və dərman bitkisi kimi perspektiv əhəmiyyət kəsb edən acı yovşan bitkisinin geniş yayılması aşkar olunmuşdur.

Acı yovşanın bir neçə xəstəliyin müalicəsində istifadə etmək olar. Xalq təbabətində yovşanın may ayında toplanmış hissələrini qaynatmaqla əldə olunmuş məlhəm titrətmə, sarılıq, qaraciyər, dalaq, yuxusuzluq, ürəkgetmə, qusma, ishal, təngnəfəslik, bədən boşluğuna yığılmış mayelərin və bir sıra bağırsaq xəstəliklərinin müalicəsində geniş tətbiq olunur. Elmi təbabətdə halen preparatlarının tərkibinə daxil edərək yovşandan qüvvətləndirici, iştahagətirici, həzmyaxşılaşdırıcı vasitə kimi istifadə olunur. Müasir xalq təbabətində acı yovşandan mədə pozğunluqlarının aradan qaldırılmasında, qəbizlikdə, qızdırmada, ürəkgetmədə, qanazlığında, öd kisəsi xəstəliklərində, vətərlərin genişləndirilməsində, yuxusuzluqda və eləcə də piylənmə əleyhinə, yovşanın yarpaq, çiçək və köklərindən hazırlanmış cövhərdən (məlhəmdən) soyuqdəymə və qankəsmədə, çibanların sağaldılmasında, bir çox yaraların müalicəsində istifadə edirlər. Yovşanın döyülmüş yarpaqlarını unla qarışdırıb xəşil bişirərək acqarına yeyir, bununla, qurdların qovulmasına nail olurlar. Kölgədə qurudulmuş yaşıl kütləsinin turşumuş südlə qarışığından hazırlanmış sıyığından bədənin əzilmiş hissələrinin və sınıqların müalicəsində işlədirlər. Yovşanla boymadərən bitkisini bir-birinə qarışdırıb köp əleyhinə istifadə edirlər. Adi yovşandan qida məqsədilə də istifadə etmək olar. Onun yarpaqları C vitamini, üzvi turşular, efir yağı, nişasta və sair maddələrlə zəngin olduğundan yeyinti məhsullarına əlavə edilməsi məsləhətdir. Acı yovşandan spirtli içkilərə, likör, vermurq və sair içki növlərinə iy və dad vermək üçün istifadə olunur. Yovşanın tərkibindəki efir yağından isə ətriyyat və sabun sənayesində istifadə edilir.

***Müalicə yovşanı.*** Müalicə yovşanının gövdəsi budaqlanan olub, sıx yarpaqlarla örtülmüşdür. Yaşılımtıl-sarı rəngli çiçəkləri süpürgə əmələ gətirir. Tərkibində limon iyli efir yağı, abrotonin alkoloidi, qatran, aşı, flavanoid və sair maddələr vardır. Cavan zoğlarından alınan efir yağından qənnadı və likör məmulatlarına xoş iy və dad verilməsi üçün istifadə olunur. Bundan hazırlanmış cövhər və preparatlardan qanazlığında və eləcə də xanazir xəstəliklərinin müalicəsində istifadə edilir. Yeyinti məqsədləri üçün müalicə yovşanının yarpağı, çiçəyi və gövdəsindən hazırlanmış ədviyyədən sirkə, sous (xörək şirəsi), şorba, cövhər, şərab, ət, balıq və sair qida məmulatlarının tərkibinə qatırlar. Bu məqsədlər üçün onun cavan yarpaq, çiçək və qönçələrini toplayıb kölgədə qurudur, narın toz halına salaraq kip bağlanmış qablara doldurub quru və sərin yerdə saxlayır, yeri gəldikcə istifadə edirlər. İstər xörəklərin, istərsə də ət məhsullarının tərkiblərinə cüzi miqdarda yovşandan hazırlanmış cövhər əlavə edib, xarab olmadan uzun müddət saxlayırlar.

**Əyyub ABDULLAYEV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

***Ta qədimdən bir sıra Şərq ölkələrində istifadə olunan udun tarixi olduqca mürəkkəbdir. Adına ilk dəfə İshaq ibn İbrahim və Əbu Nəsr Fərabinin əsərlərində rast gəldiyimiz “əl-ud” ərəbcə “ağac” mənasını verir. Özünün “Kitabül-Ədvar” adlı əsərində bu alət haqqında geniş məlumat verən Səfiəddin Urməvi eyni zamanda məharətli ud ifaçısı olmuşdur. Bu musiqi alətinin yaranması ilə bağlı bir sıra mənbələrdə məlumatlara rast gəlinsə də, bunların əksəriyyətində fərqli fikirlər irəli sürülür.***

## Səsin sehri

Belə ki, XVII-XVIII əsrlərdə ən yüksək inkişaf səviyyəsinə çatmış udun bir çox qaynaqlarda orta əsrlərdə Azərbaycanda və ümumiyyətlə, Yaxın Şərq ölkələrində ifa olunan musiqi aləti olması məlumatına rast gəlsək də, bəzi mənbələrdə isə onun əvvəlcə Siciliya adasına və İspaniyaya gətirildiyi, orta əsrlərdən etibarən isə bütün Avropada yayıldığı iddiası ilə qarşılaşırıq. Hətta bəzi materiallarda onun ərəblər tərəfindən İspaniyaya gətirildiyi, sonralar isə Qərbdə “ lütnya” adı ilə geniş yayıldığı iddiasına da rast gəlirik. Nizami Gəncəvinin yazdığına görə isə farsca “bağırsaq” mənasını verən bu alət qədim yunan filosofu Platon tərəfindən icad olunub, sonradan Şərqə keçərək, xüsusən də Azərbaycanda özünün ən təkmil formasına sahiblənib. Ümumiyyətlə, yazılı mənbələrin əksəriyyətində bu fikir doğrulanır, onun Platonun icadı olduğu qeyd edilir.



Udun öz adını qədim “rud” alətindən aldığı hesab edilir. Yəni XVI əsrdən rudun öz yerini uda verdiyi iddia olunur. Bu alət udun sələfi hesab olunsa da, bəziləri onun və eləcə də rudun sələfi olaraq Orta Asiyada istifadə olunan beşsimli udabənzər qopuzu işarə edirlər. Onu daha qədim alət olub, “ördək döşü” mənasını verən bərbət alətinin təkmilləşmiş forması, hətta çağdaş gitaraların azacıq qalın forması hesab edənlər də var. Son dövrlərdə bu sahədə aparılan araşdırmaların nəticəsinə əsaslanaraq deyə bilərik ki, ud 6 simli gitara, yəni ispan gitarasının sələfidir. Deyilənlərə görə, rusların “lyutnya”, almanların “laot”, italyanların “lyuto”, ispanların “laud” alətlərinin adları məhz “əl-ud”un adından götürülüb.

Təbii ki, bu məlumatların nə dərəcə doğru olduğunu bilməsək də, bu alətin Azərbaycanda qədim zamanlardan istifadə olunduğu danılmazdır. Muğamlarımızın ifasında ondan milli musiqi alətimiz olan tarla eyni səviyyədə istifadə olunub. Dövrünün bir çox musiqişünaslarının əsərlərində bəhs olunan bu alətin xüsusiyyətləri haqqında daha çox Məhəmməd Füzuli özünün “Yeddi cam” əsərində söhbət açıb.

Hazırda bu alətdən muxtar respublikanın musiqi kollektivlərində orkestr və ansambllarda istifadə olunur. O, solo və müşayiətçi alət kimi orkestrlərin tərkibinə daxil edilib. Ud alətinin mahir ifaçısı kimi tanınan Hüseyn Qafarov ud haqqında bunları deyir:

– Çanağı səndəl ağacından, bəzən də balqabaq qabığından hazırlanan qədim udun əvvəllər 4 qoşa simi olub. Onlar bəm, misləs, məsna və zir adlandırılıb. X əsrdə türk alimi Əbu Nəsr Fərabi ona doqquzuncu tək simi əlavə edir. XVI-XVII əsrlərdə isə udun 5 cüt, bir tək simi olub. Uddakı simlərin sayı bu gündək dəyişməyib. Udun “Ərəbi” və “Şərqi” adlanan iki növü var. Hazırda isə “Cürənd”, “Sinəud” və “Vəlud” kimi növlərindən istifadə olunur. O, çanağı sağ dizin üzərinə qoyularaq çalınır. Keçmişdə qartal və ya toyuq lələyi vasitəsilə səsləndirilən bu alətin müasir dövrdə ifasında plastik mizrablardan istifadə olunur. Cüzi dəyişiklikləri nəzərə almasaq, o, təqribən, min ildir ki, öz görünüşünü qoruyub saxlayıb. Bu alətin adına risalələrlə yanaşı, incəsənət nümunələrində də rast gəlinir ki, bu sənət əsərlərindən də ən diqqətəlayiqi Mikelancelo Merizi da Karavanconun məşhur əsəri olan “Ud çalan qız” əsəridir.

Udun özünəxas səsi insanlar tərəfindən xüsusilə sevilir. Hamı onun incə, qəlboxşayan səsinə qulaq asmaqla dinclik tapır. Hazırda udun Azərbaycanda Həsən Dadaşov, Mircavad Cəfərov, Yaşəf Eyvazov kimi mahir ifaçıları var. Musiqiçi olmayanlar arasında da ud musiqi alətinin sirlərinə yiyələnmək istəyənlər az deyil. Naxçıvan Dövlət Universitetinin tələbəsi Murtuz Haqverdiyev tar ifaçısı olsa da, ud alətində ifa etməyi qarşısına məqsəd qoyaraq qısa zamanda bu məqsədinə çatıb. Ondan ud ifa etməyi öyrənməyinin səbəbini soruşduqda dedi:

– Ümumiyyətlə, musiqinin insanlara yaşatdığı hissləri sözlərlə izah etmək mümkün deyil, xüsusilə də udda çalınan musiqilərin. Onun səsində sanki bir sehr var. Məhz elə həmin sehr bu alətin sirlərini öyrənib, ifa bacarığına yiyələnməyə məni sövq etdi. Ud səsi başağrısının, yuxusuzluğun aradan qaldırılmasına da kömək edir.

Tar ifaçılarının əksəriyyəti ud alətində ifa etməyə maraq göstərirlər. Buna da səbəb olaraq onun səsində olan yumşaqlığı, həzinliyi, sehri misal gətirirlər. Təbii ki, hər alətin öz dinləyici auditoriyası var. Əsas odur ki, həmin alətin ifa potensialını ortaya çıxara biləcək, onu dinləyiciyə aşılaya biləcək ifaçılar olsun.

✍ **Fatma BABAYEVA**

## Şahmat birinciliyi başa çatıb

***Naxçıvan Şəhər Şahmat Mərkəzində yeniyetmələr arasında şahmat üzrə şəhər birinciliyi keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin və Uşaq-gənclər şahmat məktəbinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 8-12 yaş qrupunda 60 oğlan və qız şahmatçı mübarizə aparıb. Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək bildirib ki, birinciliyi keçirməkdə məqsədimiz məktəblilərin yay tətilinin və asudə vaxtlarının səmərəli təşkil edilməsindən ibarətdir. Naxçıvan Şəhər Uşaq-gənclər şahmat məktəbinin baş məşqçi-müəllimi Həbib Mustafayev çıxış edərək yarışın qaydaları haqqında danışıb, idmançılara uğurlar arzulayıb.

Yarış İsveçrə sistemi ilə 7 turdan ibarət olaraq keçirilib. Yekun nəticəyə əsasən, Samir Abbaslı, Nəsrin Cəfərli, Zahid Allahverdiyev, Murad Cəfərov, Ayxan Babayev müvafiq olaraq 8, 9, 10, 11 və 12 yaş qrupunda birinci yerlərə layiq görülüblər.

Sonda hər yaş qrupunda yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə təltif olunublar.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Dövlət Kukla Teatrı növbəti mövsümü başa vurub

***Naxçıvan Dövlət Kukla Teatrı 27-ci mövsümünü başa vurub. Mövsüm ərzində bir neçə əsər səhnələşdirilib tamaşaçıların ixtiyarına verilib.***

Naxçıvan Dövlət Kukla Teatrının bədii rəhbər-direktoru, Azərbaycan Respublikasının Xalq artisti Yasəmən Ramazanova 2016-cı ilin ilk 6 ayı ərzində teatrın gördüyü işlər barədə məlumat verərək bildirdi ki, kollektiv müxtəlif dövlət tədbirlərində, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən Novruz bayramı şənliyində 3 tamaşa ilə çıxış edib, balacaların rəğbətini qazanıb. Hər həftənin 6-cı günləri balacalar üçün tamaşalar nümayiş etdirilib. Bundan başqa, kollektivin Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində, hərbi hissələrdə də çıxışları olub. Təhsildə fərqlənən və aztəminatlı ailələrin uşaqları üçün Ağbulaq İstirahət Mərkəzində tamaşalar göstərilib.

Qeyd edək ki, hazırda Zaur Vedilinin “Şahzadə Bəndalı” əsəri üzərində işləyən kollektiv ilin sonuna kimi “Kitabi-Dədə Qorqud” dastanından “Dirsə xan oğlu Buğac” boyunu hazırlayıb tamaşaçıların ixtiyarına verəcək.

✍ **F. BABAYEVA**

### İtmişdir

Həmidov Vilayət Həmid oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Xəlilov Xəqani Oqtay oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Məsul katib:
Muxtar Məmmədov

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 623